# CƏBRAYIL RAYONUNUN EKOLOJİ ŞƏRAİTİ

**Hüseynova G.A.[1], Nağıyeva A.R.[2]**

*[1]Bakı Dövlət Universiteti, [2]Ekologiya İnstitutu*
*nagiyevaaygun1133@gmail.com*

Cəbrayıl rayonu ekoloji terrora məruz qalan rayonlardan biri olub. Müşahidələr və şahidlərin ifadələri təsdiq edir ki, bir çox kənd və yaşayış məntəqələri tamamilə dağıdılıb, yol kənarlarında, həyətyanı sahələrdə əkilmiş qiymətli qoz ağacları kəsilərək məhv edilib, Araz vadisində bütün ağaclar yandırılıb. Qiymətli ağac növləri ilə zəngin olan meşələr və yeraltı sərvətlər talan edilib. Ermənilər yerli tikinti materialları yataqlarını, qeyri-adi flora və faunaya malik guşələrini, minerallarla zəngin içməli su mənbələrini dağıdıblar.

Cəbrayıl rayonunun sahəsi 1049 km², ərazisi əsasən dağlıqdır. İşğaldan əvvəl Cəbrayıl rayonunun Araz çayının sahilləri bir vaxtlar sıx tuqay meşələri olmuşdur. Araz boyu düzənliklərin torpaqları yük-sək məhsuldar tünd şabalıdı torpaqlardır. Səthi əsasən maili düzənlik, şimalda alçaq dağlar təşkil edir. İqlimi mülayimdir, yayı quraqdır. Yanvarda orta temperatur 0-2°C, iyulda 24-25°C-dir, illik yağıntı 400-500 mm-dir. Dağ-şabalıdı, şabalıdı və qonur dağ-meşə torpaqları geniş yayılmışdır. Dəniz səviyyəsindən 2000-2300 m yüksəklikdə subalp və alp çəmənlikləri yerləşir. Cəbrayılda torpaq-coğrafi tədqiqatlar 1950-ci illərdə başlamış, lakin son 30-35 ildə bu ərazi müharibə zonası olduğundan burada tədqiqat işləri dayandırılmışdır.

Meşələrdə və yaşıllıq sahələrində qəsdən törədilən yanğınlar bitki örtüyü, münbit torpaq və digər canlı aləmi məhv edib. Erməni vandalizminə dəlalət edən faktlardan biri də postsovet dövründən xüsusi mühafizə statuslu nadir təbiət abidələri siyahısına daxil edilmiş minillik yaşlı ağacların qəsdən kəsilməsidir. Belə ki, bir neçə gün ərzində aparılan monitorinqlərin nəticələrinə əsasən Qubadlı, Füzuli və Cəbrayıl rayonlarında yaşı 1600, 900 və 500 il olan şərq çinarlarının məhv edildiyi məlum olub.

Cəbrayıl rayonu daxil olmaqla təmas xəttində yerləşən bir çox rayonlarının ərazilərində erməni qəsbkarları tərəfindən qəsdən yanğınlar törədilib. Yanğınlar Ermənistanın nəzarəti altında olan on minlərlə hektar ərazini bürüməklə başqa ərazilərə də keçərək ətraf mühitə və canlı təbiətə ciddi ziyan vurub. Ermənilərin 2006-cı ildən ərazini mütəmadi olaraq atəşə tutması nəticəsində 110 min hektardan çox münbit torpaq sıradan çıxarılıb, ətraf mühitə və heyvanlar aləminə xeyli ziyan dəyib.

30 il işğal altında olmuş Cəbrayıl rayonunun torpaq fondu kənd təsərrüfatı üçün çox əlverişlidir. Bu həm də torpağın münbit xü-susiyyətləri və ərazinin əlverişli coğrafi xüsusiyyətləri ilə bağlıdır. Ərazinin abadlaşdırılması işləri aparılarkən bu amillər nəzərə alınma-lıdır. Düşmən tərəfindən dağıdılan Cəbrayıl rayonunun əraziləri minalardan təmizlənir, hər şey bərpa olunur. Eyni zamanda, səhvlərə yol verməmək üçün ilk növbədə münbit torpaqlardan





düzgün və sə-mərəli istifadəyə üstünlük verilməlidir. İnfrastruktur və yaşayış mən-təqələri elə seçilməlidir ki, münbit torpaqlara minimal ziyan dəysin.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində müvəqqəti xüsusi idarənin təşkili haqqında" 29 oktyabr 2020-ci il tarixli sərəncamına əsasən, bu ərazilərdə ekoloji tarazlığın bərpası ilə bağlı təkliflərin hazırlanmasına başlanılıb. İşğaldan azad edilmiş ərazilərdə yaşıllıqların bərpası, regionun "yaşıl enerji" potensialı müzakirə olunur. Azərbaycanın Meşə Fondunun 2022-2026-cı illər üçün bərpası Proqramı hazırlanıb. Proqram Qarabağın işğaldan azad edilmiş ərazilərində və digər ərazilərində meşələrin bərpası ilə bağlı tədbirləri nəzərdə tutur. Bu işlər çərçivəsində artıq Türkiyənin Kənd Təsərrüfatı və Meşə Nazirliyi tərəfindən Cəbrayıl şəhəri ətrafında 20 hektar sahədə "Dostluq Meşəsi"nin tikintisinə başlanılıb. Ərazidə tədris mərkəzinin yaradılması istiqamətində də işlər aparılır. Bundan əlavə, işğaldan azad edilmiş ərazilərdə bərpa işlərinin layihələndirilməsi və planlaşdırılması üçün topoqrafik xəritə tərtib edilir, bərpa işlərində istifadə oluna bilən yerli tikinti materiallarının ehtiyatları hesablanır. "Yaşıl enerji" konsepsiyası çərçivəsində bərpa olunan enerji mənbələrinin maksimum potensialının hesablanması artıq hazırdır. Beləliklə, artıq Qarabağın, eyni zamanda Cəbrayıl rayonunun meşə fondunun bərpası istiqamətində işlər görülmüşdür.